# Elşad Səfərli: İki kitab



*Allahverdi Eminov*

**(əvvəli ötən şənbə sayımızda)**

Müəllif bir xarakterik fakt gətirir:

**Bir qəzet var,**
**Dönüb bir-iki ailənin**
**ailə qəzəbinə.**
**O şeir yazır bunun itinə,**
**Bu şeir yazır onun itinə.**
**Vəsf edilən elə öz itləridi.**
**Elə bil,**
**Yalnız onlardan ötəridi...**

Mən öyüd-nəsihət mənasında deməzdim: axı gələcək, əsl sənət əsərini tanıyır, monopolik seçməni qəbul etmir. Filosof Buffon deyirdi ki, yalnız yaxşı əsərlər gələcək nəslə çata bilir...

Şairlər, nasirlər, rəssamlar, eləcə də alimlər bir-birini daha çox anlamalıdılar, fitrətən belə olmalıdır, yoxsa uğurlu əsərə və onun müəllifinə paxıllıq etmək yaraşarmı. Elşad bu şeirin bir növ davamı kimi "Paxıl"ı yazmışdır, səmimiliyini gizlətməmişdir.

**Böyüksən, dahisən, olsun - nə işim,**
**Şeirdə dühasan, olsun - nə işim.**
**Çiyninə uldzular qonsun - nə işim -**
**Üstəlik, deyirəm ulduzsan, paxıl.**

**...Vicdanın elə bil sağalıb sənin,**
**Xəmirin mayasız yoğrulub sənin.**
**İçinə pisliklər yığınıb sənin,**
**Sən ki, pisliklərə daxılsan, paxıl!**

**Mən qisası seçib almıram ki, kam,**
**İstəsən hayına darda çataram.**
**Mən əldən vuran yox, əldən tutanam,**
**Əlindən tutaram yıxılsan, paxıl.**

Elşad Səfərli o şairlərdən sayılır, öz fitri istedadına güvənir, həyatı idrak edir, balalarımızı elmlə-mərifətlə maarifləndirir, kimsənin söz bostanına daş atmır, oxucusunu sevincə, xoşbəxtliyə, hürriyyətə səsləyir - bir-birlərini sevsinlər, əvəzində "Şöhrət" ödülü yox, yuxarıda - paytaxtda əli yox (O, Lənkəranda doğulub, boya-başa çatıb, bu gün də orada çalışır; Lənkəran DU-da), hücrəsindədir, təklik şahıdır, azaddır:

**Və bu azadlıqdan alıram kam**
**Nə diktə quluyam,**
**Nə də diktatoram.**
**Dövlət içində dövlət -**
**Vatikan kimiyəm!**

Elşad Səfərlinin yaradıcılığı (o həm də istedadlı alim - ədəbiyyatşünasdır) şəxsiyyət kimi səmimi və xeyirxahdır; bunu təsəvvürümə gətirəndə məşhur fransız şairi (XX əsr) Pol Elyuarın bir kəlamı yadıma düşdü: "İnsanlar yaranmışlar ki, bir-birilərini başa düşsünlər, bir-birini sevsinlər. Onların övladları vardır; bu uşaqlar dünyanın soyuğunu çəkəcəklər. Bu uşaqlar yenidən odu, yenidən insanlığı kəşf edəcəklər".

Bu o uşaqlar - o nəsil olur, ataları halal əməyilə, sənəti-peşəsiylə, vicdanı ilə, bir sözlə, şəxsiyyət bütövlüyü ilə böyüdür, tərbiyə edir. Haşiyə çıxım ki, bu sətirlərin müəllifi Elşadın ailəsini: atasını, qardaşını yaxşı tanıyırdı, kənddə hörmət qazanmışdı valideynləri. Oğul Elşad bu etimadı doğruldub yaşatdı, istedadı və gərgin zəhmətilə yüksəldi. Və "Oğluma, qızıma ikinci şeir"ini qələmə aldı: Fridana və Turana! Bu şeir sosioloji motivlə əxlaqi-ruhi harmoniyanın vəhdətindən yaranmışdır. Gələcək illərində övladları, nəvə-nəticələri xəcalət çəkməsinlər, ona görə ki:

**Sənətə yönəltdi duyğular, onu,**
**Bir yandan incitdi ağrılar onu.**
**Yedi içərisindən qayğılar onun,**
**Saçları ağardı tez atanızın.**
**Vara da qaçmadım, bilirdim qəti -**
**Dünyanın dünyada qalır sərvəti.**
**Necə ki, hamitək olur qisməti.**
**Gedəndə bir çarış bez atanızın.**

Və nəhayət, ululların nigaran - sevinc arzusu:

**Xoşbəxtdir o kəs ki, yurdu boş qalmır,**
**Çırağı gedəndən sonra qaralmır.**
**Ölsəm, dərd etməyin, ömrüm qırılmır,**
**Ömür davamısız siz atanızın.**

Elşad Səfərlinin şeirlərində genetik-ardıcıllıq kodu var və bu üslub mövzunu tamamlayır. Necə ki, barəsində danışdığım şeirindəki poetik informasiya "Bir Elşad Səfərli vardı dünyada da" motivləşir. Şeirdə şair Elşad Səfərlinin poetik obrazını görürük: Allahın hökmünü hər an gözləyən, başına gələ biləcək hadisəni praqnozlaşdıran, ana itkisindən qəlbi qırılan, qardaş xiffətindən bağrı yarılan ilk eşqi daşlara çırpılan, amalı, vicdanı, qəlbi düz olan, namərdlərlə vuruşda sınmayan - bu şərti "yeddilik" insan kodu. Bu, Ali insan tipidir: varlığını intellektual vicdanı ilə dolduran, kölə əxlaqına nifrət edən, şair ləyaqətini qorumağı bacaran (bu gün bu, çox çətinləşib), başını dik tutan və əbədiyyətdə yeri olan Elşaddır - bu epitetləri sadalamağa bəlkə də ən çox mənim haqqım çatır illərə etibarımda. Həyatın nikbinliyi, ölümün labüdlüyü haqqında çox danışmışıq, dərdləşmişik, ədəbiyyatın ölməzliyinə haqq qazandırmışıq. Və piçıldamışıq: Bir vaxt biz vardıq qoyub getdiyimiz Dünyada. Və nə vaxtsa ömrümüzün nağıl möcüzəsi başlar: "Biri vardı, biri yox, bir Elşad Səfərli vardı dünyada".

O nisbi ömür ötən il qapımı döymək istəmişdi. Şeytan (mənim "Şeytanın intiharı" romanının qəhrəmanını nəzərdə tuturam) məni əzrayıldan gizlətmək üçün İstanbulu məsləhət gördü, inandırdı ki, hər şey yaxşı olacaq. İki aylıq müalicə həsrətimə şərik çıxdı. Elşad Səfərli sıxıntılarıma təsəlli verdi. "Küsü" şeirilə. İstanbula misralar Vətən havasını gətirmişdi.

**...Az qalıb bu yumru binadan gedim -**
**Harasa Allahın adından gedim.**
**Atasız, qardaşsız... dünyadan gedim -**
**Kimlərin çiynində bəs mən, ay ustad?!**

Elşad Səfərli barədə "Elşad Səfərlinin poeziyası: düşüncələr, mülahizələr" (Bakı, 2015) monoqrafiyamda yazmışdım: "Elşad Səfərli imzası ədədi mühitdə axır vaxtlar demək olar ki, gözə çarpmır" iradı bəlkə də mənim yanılmağım idi, yaxud onun mətbuat, nəşr aləmində susması idi və bir ildə iki dəyərli şeirlər kitabımı çap etdirdi. Bunun özü Elşadın poetik prinsipinə, iradi keyfiyyətinə işarədir. İkinciyə onun sonetləri, bəzi şeirləri və bir poeması daxil edilmişdir.

Elşad poeziyada janr rəngarəngliyi sevən şairdir, xokkiləri və sonetləri yaxşı qarşılanmış, ətraflı təhlil olunmuşdur. Ədəbiyyatşünas Hüseyn Həşimli və Allahverdi Eminov tərəfindən xüsusi vurğulanmışdır.

Sonetlər çələnginə gəldikdə şair Şekspirdən üzü bəri yazılan bu janrı yamsılamamış, özünün poetik üslubu ilə: emosional və intellektual ahəngilə, dilinin ləyaqəti və əlvanlığı ilə, söz və intonasiya labirintilə qələmə almışdır. Bu sonetlərin yaşı cavandır (2000-2017), daşıdığı məna siqlətisə poetik yüklüdür. "Dante daim vəsf etdi gözəl Beatriçeni" misralı soneti 18 avqustda doğulmuşdur.

**Səninlə fəxr edirəm, çoxuna bəllidir bu,**
**Heç nədə yox gözüm, neynirəm malı, mülkü,**
**Sən mənimçün hər şeysən bu dünyada, əzizim!**
**Gözəllərin hüsnünə iz salanda qırışar,**
**Qarabəniz bir xanım dillənəcək həmin an.**

"Mənə nə vermişdi ki, nəyi də alsın zaman!" - yazılma tarixi 20.01.2017. Son!

"Lənkəran sonetləri"ni janrın müxtəlif növlərində yazmış, lirik, həzin ovqatı tərənnüm etmişdir. Sonetlərin xeylisi ayrı-ayrı şairlərə həsr olunmuşdur. N.Həsənzadə, Xəlil Rza Ulutürk, Adil Babayev, Şəkər Aslan, Vaqif Hüseynov... Şekspirə və Pasternaka aid sonetlərində rəng çalarları tərtəmizdir, solmazdır, gözəlliyə qovuşandır və bu "üçlük"dən zövq alır, ilhama gəlir.

Şair Elşad Səfərlinin poeziyası haqqında danışarkən ən azı onun qəlbinə, ömür yarpaqlarına, fəaliyyət dairəsinə bələd olmalısan, təmənnasız yaradıcılıq niyyətini mənimsəyəsən. Xüsusilə, sonetlərindəki kolorit, sözə qənaət, ruhi ölməzlik kimi poetik-dil nüanslarını duymağı bacarasan; bu əlamətlərdir oxucu zövqünü təmin edən. Böyük rus yazıçısı və söz sərrafı, tənqidçi B.B.Şklovski yazır: "Üslubun ləyaqəti məhz ondadır ki, mümkün qədər az sayda söz işlətməklə imkan qədər çox fikirlər çatdırsın".

**Bu maraqlı tezisi şair Elşadın poeziyasına şamil edirəm. O, hadisələrin sosial çalarlarına cəsarətlə müdaxilə edir, mənəvi dəyərlərdən yan keçmir, dünya ilə arasındakı çarpışmada oxucusunun yanında olur, özünü sınağa çəkir, sənətdə geriyə dönüşü yoxdur. Hansı şairin qəlbini, yaddaşını "Uğursuz eşq əfsanəsi" üstələyirsə... "Alması düşməyən nağıllar"da səmada əbədi yaşamaq haqqı çatır.**